# Türkiyədə azərbaycanlı xoreoqrafın birnəfərlik tamaşası olub



**İstanbuldakı "Bilim Bəyoğlu" Mədəniyyət Mərkəzinin səhnəsində "Çoxşaxəlilik" xoreoqrafik monotamaşa nümayiş olunub. Tamaşanın müəllifi və ifaçısı tanınmış azərbaycanlı və rusiyalı rəqqas, xoreoqraf Fərid Kazakov olub.**

Tamaşada insanın ömür boyu bir-biri ilə mübarizə aparan işıqlı və qaranlıq tərəfləri göstərilir.

Fərid Kazakov bildirib ki, birnəfərlik tamaşanın nümayişi onun bu il martın 12-də dünyasını dəyişən görkəmli müəllimi, SSRİ Xalq artisti Tamilla Şirəliyevanın xatirəsinə həsr olunub.

"Tamilla xanımın vəfatından mən çox pərişan oldum. Onu çox sevirdim və pərəstiş edirdim. Xoşbəxtəm ki, SSRİ-nin əsl simvolu olan Tamilla xanımın sayəsində bu gün əldə etdiyim hər şeyə, ən əsası isə peşəkarlığa nail ola bildim! Tamaşa anşlaqla keçib, 200-dən çox insan iştirak edib. Bir çox insan onu ayaq üstə seyr edib", - deyə artist bölüşüb.

Səhnədə "Kazakov International Academy and Elita Sport Club"un tələbələri də çıxış ediblər. Tamaşanın sonunda Türkiyə uşaqlarını yüksək incəsənət və mədəniyyətlə tanış etdiyinə görə Fərid Kazakova rəhbərlik tərəfindən təşəkkürnamə təqdim olunub.

Azərbaycan.- 2025.- 4 may (№ 90).- S.9.